# Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idrak maraqlarının eksperimental tədqiqi

**Rəna Nüsrəddin qızı Cəbrayılova**
*ADPU-nun "Pedaqoji psixologiya" kafedrasının baş müəllimi*
**E-mail:** r.jabrailova@rambler.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** idrak maraqları, təfəkkür, emosional reaksiyalar, diaqnostika, motiv
**Ключевые слова:** познавательные интересы, мышление, эмоциональные реакции, диагностика, мотив
**Key words:** cognitive interests, thinking, emotional reactions, diagnostics, motive

Kiçik məktəbli yaş dövrü – ibtidai məktəb təliminin mərhələlərinə uyğunlaşan uşaqların inkişaf mərhələsidir. İdrak maraqları kiçik yaşlı məktəblilərdə mühüm təlim amili və şəxsiyyətin təşəkkülünün zəruri həyat amilidir. Məktəbdə qarşıya qoyulan məqsədlərə uğurla nail olmaq üçün ilk növbədə məktəblilərin təlim maraqlarını inkişafı üçün əlverişli, optimal şərait yaradılmalıdır ki, şagirdləri öyrəndikləri cisim və hadisələrdə aktiv, məqsədəuyğun maraqlarını inkişaf etdirsin. Dərsdə düzgün planlaşdırılmış iş şagirdlərdə idrak maraqlarının tədricən inkişafını və güclənməsini şərtləndirir.

Bunun üçün bir sıra metodikalardan istifadə olunur:

1. *Məktəb motivasiyasının səviyyəsinin qiymətləndirilməsi"* metodikası (N. Luskanova). *Metodikanın məqsədi*: şagirdlərin təlimə, təlim prosesinə münasibətini, habelə məktəb situasiyasına emosional reaksiyanı müəyyən etmək.

2. *"Dərs pilləkəni" metodikası* (N.V. Elfimova). Bu metodika əlavə qismində aparılmışdır. Məqsəd şagirdlərin onlar üçün hansı fənlərin maraqlı olmasını müəyyən etməkdir. Eksperimental material kartlardan ibarət olmuşdur. Həmin kartlarda təlim fənlərinin adları yazılmışdır. Sonra şagird hər bir təlim fənninə öz münasibətini ifadə etmək və "Dərs pilləkən"ini qurmalıdır. Əgər əsas təlim fənləri yuxarı pilləkəndə durursa (I-IV), deməli, orada münasibətlər müsbətdir, əgər təlim fənləri aşağı pilləkanında qoyulubsa orada münasibət mənfidir.

Beləliklə, idrak maraqlarının diaqnostikası dedikdə, təlim prosesinin inkişafı, idrak maraqlarının inkişaf səviyyəsini müəyyən etməyə imkan verən müxtəlif metodların məcmusu başa düşülür. Q.İ. Şukinanın tədqiqatlarına istinad edərək tərəfimizdən idrak maraqlarının üç səviyyəsi müəyyən edilmişdir. Tədqiqatçıların fikrincə, idrak maraqlarının diaqnostikası psixoloji-pedaqoji metodlar kompleksinin tətbiqi əsasında aparılır.

Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idrak maraqlarının öyrənilməsi məqsədilə 221 saylı məktəbdə tədqiqat aparılmışdır. Tədqiqatda III sinif şagird- lərindən ibarət 26 nəfər şagird sınanılan şəxs qismində iştirak etmişdir.

İdrak maraqlarının səviyyəsini müəyyən etmək üçün V.İ. Lozov və Q.İ. Şukina tərəfindən təklif edilmiş göstəricilər əsas götürülmüşdür:

— təlimə münasibət, təlimə maraq;
— tapşırıqların yerinə yetirilməsində müstəqillik;
— diqqət (müəllimin izahını diqqətlə dinləmək, fikirləri mərkəzləşdirmək, tərəddüd);

— şagirdlərin sualları, müəllimlərə müraciət;

— şagirdlərin öz arzu və istəklərinin fəaliyyətində iştirak etmələrinə cəhd, öz nöqteyi-nəzərini ifadə etmək arzusu.

Müəyyən edilmiş meyarlar əsasında idrak maraqlarının yüksək, orta və aşağı səviyyələri müəyyən edilmişdir. Tədqiqatın nəticələrini nəzərdən keçirək:

***1 .“Məktəb motivasiyasının səviyyəsinin qiymətləndirilməsi”* metodikası (N. Luskanova). Məqsədimiz şagirdlərin təlimə, təlim prosesinə münasibətini, habelə məktəb situasiyasına emosional reaksiyanı müəyyən etməkdir.**

**Cədvəl 1.**

**Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin motivasiyasının diaqnostikasının nəticələri (%-lə)**

| № | Səviyyələri | Kiçik yaşlı məktəblilərin idrak maraqlarının öyrənilməsi məqsədilə dərsdə şagirdlərin davranışının müşahidəsinin nəticələri | |
|---|---|---|---|
| | | nəfərlə | faizlə |
| 1. | Yüksək | 12 nəfər | 46% |
| 2. | Orta | 9 nəfər | 35% |
| 3. | Aşağı | 5 nəfər | 19% |

**Şəkil 1-də** təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin motivasiyasının diaqnostikasının nəticələri göstərilmişdir.




Tədqiqatın nəticələri göstərdi ki, şagirdlərin 46%-də (12 nəfərdə) motivasiyanın yüksək səviyyəsi aşkar edilmişdir. Bu şagirdlər yüksək idraki motivləri ilə seçilir, onlar məktəbin və müəllimlərin tələblərini uğurla yerinə yetirməyə cəhd göstərirlər. Sınanılanların 35%-də (9 nəfərdə) motivasiyanın orta səviyyəsi müşahidə edilmişdir. Belə şagirdlər məktəbdə özlərini yaxşı hiss edir, məktəbə tez-tez gedirlər ki, dostları ilə görüşüb ünsiyyət yaratsınlar. Bu şa-

girdlərin idrak motivləri kifayət qədər formalaşmadığından təlim prosesi onları az cəlb etmişdir.

Şagirdlərin 19%-də (5 nəfərdə) motivasiyanın aşağı səviyyəsi qeydə alınmışdır. Belə şagirdlər təlimdə çoxlu problemlərlə, çətinliklərlə rastlaşır, müstəqil şəkildə çətinlikləri aradan qaldıra bilmirlər. Müəllimləri və sinif yoldaşları ilə ünsiyyətdə və münasibətdə problemlər yaranır.

Belə nəticəyə gəlmək olar ki, bu şagirdlərdə motivasiya kifayət qədər formalaşmamışdır.

**2. *"Dərs pilləkəni" metodikası (müəllif N.V. Elfomova)*.** Bu metodikanın köməyi ilə şagirdlərin özləri üçün hansı fənlərin maraqlı olduğunu müəyyən etmək olar. Metodikanı bütün siniflə eyni vaxtda, yaxud da ayrı-ayrı şagirdlərlə fərdi şəkildə aparıla bilər.

Metodika üzrə alınmış nəticələr göstərmişdir ki, şagirdlər I yerdə (1-3 pillədə) riyaziyyatı (31,8%), ana dilini (45%), bədən tərbiyəsini (45,4%) qoyurlar. II yerdə (4-6 pillədə) şagirdlər üçün əhəmiyyətliyinə görə ana dili (25,9%), riyaziyyat (18,5%), ətraf mühitlə tanışlıq (11,1%) dayanır. III yerdə (7-8 pillədə) şagirdlər bədən tərbiyəsini (25,9%), ətraf aləmlə tanışlığı (18,5%), oxunu (18,5%), ana dilini (18,5%) və riyaziyyatı (14,8%) qeyd etmişlər.

Bunlar bir daha göstərir ki, şagirdlər müxtəlif fənləri seçirlər. Eləcə də o göstəricilərinə görə o qədər əhəmiyyət kəsb etməyən məktəb uğurları: bədən tərbiyəsi, ətraf aləmlə tanışlıq və s. mühüm rol oynayır.

Müşahidənin gedişində aparılan metodikanın kompleks təhlili kiçik yaşlı məktəblilərin idrak maraqlarının formalaşmasının üç səviyyəsini müəyyən etməyə imkan vermişdir: Sınanılanların 37%-də (10 nəfərdə) idrak maraqlarının formalaşmasının yüksək səviyyəsi aşkar edilmişdir. Bu şagirdlər üçün təşəbbüskarlıq, müstəqillik, idrak vəzifələri, işi həvəslə yerinə yetirməyə maraq və həvəs özünü göstərir. Çətinliklər yarananda şagirdlər inadkarlıq göstərir, nəticələrin əldə edil məsinə inadla yanaşırlar ki, yüksək nəticələr əldə etsinlər. Bu da onlarda böyük sevinc və məmnunluq hissi yaradır. Şagirdlərin 42%-də (11 nəfərdə) idrak maraqlarının orta səviyyəsi müşahidə edilmişdir. Bu şagirdlər üçün tapşırıqların qəbulunda yüksək məsuliyyətlilik xasdır. Tapşırıqların icrasında çətinlik çəkdikdə şagirdlər onlara emosional münasibət sərf etmirlər, kömək üçün müəllimə müraciət edirlər, tapşırıqların şərtini dəqiqləşdirmək üçün suallar verirlər, tapşırıqları sona qədər icra edirlər. Böyüklərlə birlikdə tapşırıqların həlli üsullarını axtarmaq həvəsi bunu bir daha sübut edir.

Kiçik yaşlı məktəblilərin 21%-də (5 nəfərdə) idrak maraqlarının aşağı səviyyəsi qeydə alınmışdır. Bu şagirdlər təşəbbüskarlıq nümayiş etdirmirlər, tapşırıqların yerinə yetirilməsi prosesində müstəqilliyini təzahür etdirirlər. Mənfi emosiyalar və çətinliklər təzahür edəndə onlara maraq göstərir, idraki suallar vermirlər, tapşırıqların icrasında mərhələlərlə izaha ehtiyac duyurlar.

**Cədvəl 2.**

**Kiçik yaşlı məktəblilərin idrak maraqlarının formalaşmasının nəticələri**

| № | Səviyyələr | Kiçik yaşlı məktəblilərin idrak maraqlarının formalaşmasının nəticələri (nəfərlə, %-lə) | |
|---|---|---|---|
| 1. | Yüksək | 10 nəfər | 37% |
| 2. | Orta | 11 nəfər | 42% |
| 3. | Aşağı | 5 nəfər | 21% |




**Şəkil 2. Kiçik yaşlı məktəblilərin idrak maraqlarının formalaşmasının nəticələri**

Kiçik yaşlı məktəblilərdə idrak maraqlarının formalaşmasının nəticələrini nəzərdən keçirək: kiçik yaşlı məktəblilərdə idrak maraqlarının formalaşmasının yüksək səviyyəsi 37% (10 nəfər), orta səviyyə 42% (11 nəfər), aşağı səviyyə 21% (5 nəfər) olması halları qeydə alınmışdır.

Müşahidələrin gedişində alınmış kompleks təhlillərin nəticələri kiçik yaşlı məktəblilərdə idrak maraqlarının formalaşmasının üç səviyyəsini: yüksək - 27%, orta - 42%, aşağı -21% müəyyən etməyə imkan vermişdir. Diaqnostikadan alınan nəticələr kiçik yaşlı məktəblilərin idrak maraqları gələcək inkişafı planlaşdırmağa və korrektə etməyə imkan vermişdir.

**Məqalənin aktuallığı.** İdrak maraqları kiçik yaşlı məktəblilərdə mühüm təlim amili və şəxsiyyətin təşəkkülünün zəruri həyat amilidir. Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idrak maraqlarını öyrənmək üçün bir çox metodikalardan istifadə edilir ki, bu da məktəblilərin motivasiyasını gücləndirir, onların təlimə marağını artırır.

**Məqalənin elmi yeniliyi.** Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idrak maraqlarını öyrənmək üçün istifadə edilən metodikalar müəllif tərəfindən eksperimental şəkildə araşdırılmış və nəticələr ümumiləşdirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə.Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2004.
2. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2002.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.
4. Баранова Э.А. Диагностика познавательного интереса у младших школьников и дошкольников. – М: Речь, 2004. – 219 с.

**Р.Н. Джабраилова**

## Экспериментальное исследование познавательных интересов младших школьников в учебной деятельности

### Резюме

В научной статье показано, что познавательные интересы являются важным фактором обучения младших школьников и важнейшим фактором формирования личности. Многие методы используются в учебной деятельности для изучения познавательных интересов младших школьников. В статье проведено экспериментальное исследование этих методов и результаты обобщены и отражены в таблицах и рисунках.

**R.N. Jabrayilova**

## Experimental study of cognitive interests of young students in learning activities

### Summary

The scientific article shows that cognitive interests are an important learning factor in young schoolchildren and a vital factor in the formation of personality. Many methods are used in learning activities to study the cognitive interests of young students. In the article, an experimental study of these methods was conducted and the results were summarized and reflected in tables and figures.

**Redaksiyaya daxil olub:** 05.04.2022